**"ANR Audit" Məhdud Məsuliyyətli Cəmiyyəti**

Azərbaycan Respublikası, Bakı şəhəri,
AZ1096, Q.Qarayev pros.84, mən.38
VÖEN: 1900137052
Audit Lisenziyası № AT 113

84, Q.Qarayev Str, app. 38
AZ1096, Baku, Azerbaijan
Tax ID No: 1900137052
Audit License No: AT 113

Tel : (+99412) 4220760
(+99450) 2236075
E-mail: anraudit@office.az

# Müstəqil auditorun hesabatı (Auditor Rəyi)

*"Baku Electronics" Məhdud məsuliyyətli cəmiyyətin təsisçilərinə*

Biz **"Baku Electronics" Məhdud məsuliyyətli cəmiyyətin** 31 dekabr 2015-ci il tarixinə balans hesabatından və bu tarixdə başa çatmış il üzrə mənfəət və zərərlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti barədə hesabatlarından ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

***Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti***

Rəhbərlik göstərilən maliyyə hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdimatı üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanılması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

***Auditorun məsuliyəti***

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də, fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi auditorun mühakiməsindən asılıdır. Bu risklər qiymətləndirilərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib-hazırlanması məqsədilə müəssisənin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmür. Auditə, həmçinin tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edimiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları auditor rəyinin bildirilməsi üşün yetərli və müvafiq əsası təmin edir.

***Rəy***

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2015-ci il tarixinə ***"Baku Electronics" Məhdud məsuliyyətli cəmiyyətin*** maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkəti haqqında Milli Mühasibat Uçotu Standartlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

**"ANR Audit" MMC-nin direktor-auditoru:** **N.R.Abbaslı**

**02 may 2016-cı il**
**Azərbaycan Respublikası, Bakı şəhəri**

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti «ANR Audit» Limited Liability Company AZERBAIJAN REPUBLIC